*HEYDƏRDİ*

*İllər, sizi hələ cavan saxlayıb,*

*Keşiyində durduğunuz Heydərdi.*

*Millət üçün gəncliyini hifz edib,*

*Düşmən bağrı yardığınız Heydərdi.*

*İndiki tək keçən illər gözəldi,*

*Görürsünüz  necə Heydər gözəldi.*

*Günortanın günü qədər gözəldi,*

*Ömürdən pay verdiyimiz Heydərdi.*

*Kiçik ölkə bu qüdrətlə genişdi,*

*Millət üçün qitələrlə döyüşdü.*

*Nə ömrə qış, nə əhvala qar düşdü,*

*Yaz seyrinə vardığımız Heydərdi.*

*O yenilməz, hələ cavan bir kişi,*

*Şax görkəmli, təravətli gülüşü.*

*Şir nərəsi, cavan pələng gərdişi,*

*Sizdən öndə gördüyümüz Heydərdi.*

*Dinclik bilmir min səhərin eşqinə,*

*Çağla, şair, nəğmələriri eşqinə.*

*Hər könüldə hər səfərin eşqinə,*

*Heykəlini qurduğumuz Heydərdi.*

*Məbədinə diz çökmədi şöhrətin,*

*Ehramına səcdə qıldı xidmətin.*

*Sayəsində qədirbilən millətin,*

*Xoş dövranlar sürdüyümüz Heydərdi.*

*Abidəsi neçə-neçə kənd, şəhər,*

*Geniş yollar, imarətlər, körpülər.*

*Kükrəməsin məramı bəd körpələr,*

*Arxasında durduğumuz Heydərdi.*

*Çox göz qoyub zirvələrdən göylərə,*

*Çəkdi bizi, çəkdi yerdən göylərə.*

*İdrakıyla üfüqlərdən göylərə*

*Oalxıb, qanad gərdiyimiz Heydərdi.*

*Təmənnam yox, gərəк təbi tərpənib,*

*Bu nəslin hər pələngini vəsf edəm.*

*Gecə-gündüz qəlbimizdə taledən,*

*Heydərini sorduğumuz Heydərdi.*

*Nə eşqində, nə qəlbində qorxu var,*

*Qüdrətində vətən tapıb ilk bahar.*

*Məhbubələr, gül ismətli xanımlar,*

*Adına gül dərdiyiniz Heydərdi.*

*Məhəbbətdir, səadətdir əlləri,*

*Onda vüqar, onda gənclik illəri.*

*Ondan alıb öpdüyünüz gülləri,*

*İpək telə hördüyünüz Heydərdi.*

*Mən nə deyim "baba" deyən dillərə?*

*Hələ çox var o siz deyən illərə.*

*Heydər ki, var xəbər olsun ellərə.*

*Gəncliyində gördüyümüz Heydərdi.*

***2002***

***Məstan Günər***

***Mədəniyyət. – 2009. -9 may. – S23.***

***Bir oğul göstərin Heydərə bənzər. – B.: Nağıl evi, 2009. – S.69-70.***